# AHİK-in İcraiyyə Komitəsinin Zəfər Günü münasibətilə beynəlxalq əmək təşkilatlarına müraciəti

***AHİK-in İcraiyyə Komitəsi Zəfər Günü ilə əlaqədar beynəlxalq əmək təşkilatlarına müraciət edib. AHİK-in 28 üzv sahə təşkilatının imzaladığı müraciətdə deyilir:***

"Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 30 ilə yaxın müddət ərzində Ermənistan silahlı qüvvələrinin işğalı altında olan torpaqlarımızı azad etməsindən, tarixi ədalətin bərqərar olmasından, beynəlxalq hüququn pozulmuş prinsiplərinin bərpa olunmasından bir il ötür.

Ötən əsr 90-cı illərin əvvələrindən başlayaraq xarici havadarları tərəfindən silahlandırılan Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi azərbaycanlıları doğma yurd-yuvalarından didərgin salmaqla yanaşı, ölkəmizin iqtisadiyyatına və mədəni irsinə də ağır zərbə vurub, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün həyatı sürməyə məcbur olub. Ermənistan bu müddət ərzində işğal altında saxladığı Azərbaycan ərazilərini acınacaqlı vəziyyətə salıb, şəhər və kəndlərdə infrastrukturu tamamilə məhv edib, Azərbaycana milyardlarla dollar dəyərində maddi ziyan dəyib. Azərbaycanlılara qarşı soyqırımları törədib. Ermənilərin Xocalıda törətdikləri soyqırımı bütün dünyaya bəllidir.

Azərbaycan daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirmiş və münaqişənin danışıqlar vasitəsilə həllinə çalışmışdır. Lakin münaqişənin tənzimlənməsi üçün yaradılmış ATƏT-in Minsk qrupu fəaliyyətinin 29 ili ərzində məsələnin həllinə yox, dondurulmasına çalışdı, həm işğalçıya, həm də işğala məruz qalmış tərəfə eyni münasibət bəslənildi, beynəlxalq qətnamələr kağız üzərində qaldı. BMT işğalçı Ermənistana heç bir təzyiq göstərmədi, qurumun Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən məlum 4 qətnaməsi 27 il kağız üzərində qaldı, icra olunmadı.

Bütün bu illər ərzində Ermənistan işğalçı siyasətini davam etdirdi, ərazilərimizdə təxribatlar törətdi, təmas xətti boyunca yaşayan dinc əhalimizi mütəmadi olaraq atəş altında saxladı. 2020-ci il 27 sentyabr tarixində Ermənistan tərəfindən növbəti hərbi təxribat törədilməsinə cavab olaraq Azərbaycan Ordusunun başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. Noyabrın 10-da Ermənistan məcburiyyət qarşısında kapitulyasiya aktına imza atıb. Kapitulyasiya aktına görə, bir güllə atmadan Ağdam, Kəlbəcər və Laçın rayonları Azərbaycana qaytarıldı. Beləliklə, Azərbaycan həm döyüş meydanında, həm siyasi müstəvidə qələbə qazandı. Bu, tarixi qələbədir, separatizmə tutarlı cavabdır, bəşəriyyətə mühüm bir töhfədir. Dünyanın siyasi nizamını pozan, münaqişələrə, qanlı müharibələrə səbəb olan, məcburi köçkün ordusunun sayını artıran separatzmin bir elementi artıq məhv edilib.

Azərbaycan həmkarlar ittifaqı olaraq bildiririk ki, artıq bölgədə əvvəlkindən fərqli olaraq bütün Cənubi Qafqazın və ümumilikdə regionun hərtərəfli inkişafına təkan verəcək yeni reallıqlar hakimdir. Bu, sabitliyə, təhlükəsizliyə, qarşılıqlı əməkdaşlığa, iqtisadi inkişafa xidmət edəcək yeni vəzifələrdir ki, Ermənistanın bununla barışması onların əmin-amanlıq şəraitində yaşaya bilməsi üçün son çıxış yoludur. Azərbaycanın irəli sürdüyü və realaşdırmağa çalışdığı layihələr siyasi-iqtisadi əhəmiyyətinə görə böyük perspektivlərə malikdir və bütün regionun rifahına və inkişafına hesablanıb.

Biz Azərbaycan həmkarlar ittifaqları olaraq bütün beynəlxalq təşkilatlara, o cümlədən Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasına, Ümumhəmkarlar İttifaqları Konfederasiyasına, Pan Avropa Regional Şurasına, Qlobal Sahə Həmkarlar İttifaqlarına və əməkçi təşkilatlara müraciət edərək vurğulayırıq ki, Azərbaycan həmişə olduğu kimi sülhə, sabitliyə sadiqdir, milli maraqlar çərçivəsində hətərəfli əməkdaşlığa, mehriban qonşuluq prinsipinə daim üstünlük verir. Ermənistan da konkret mövqedən çıxış etməli, üçtərəfli Bəyanatdan irəli gələn bütün öhdəlikləri yerinə yetirməlidir. Sərhədlərin delimitasiyası və demarkasiyası, sülh müqaviləsinin imzalanması üçün yaratdığı sünü əngəllərdən əl çəkməlidir. Yuxarıda qeyd etdiyimiz beynəlxalq əmək təşkilatlarını Azərbaycanın sülh çağırışlarını təqdir etməyə, obyektiv və ədalətli mövqe sərgiləməyə çağırırıq".

***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 7 noyabr.- S.12.